# Sənətçilər Arif Məlikovun xatirəsini “Komdenin göz yaşları” ilə yad ediblər

Azərbaycanın dünyaca məşhur bəstəkarı Arif Məlikovun 90 illik yubileyi ilə əlaqədar Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist İnarə Babayeva maraqlı videoçarx layihəsi təqdim edib. Videoçarxda bəstəkarın ”İki qəlbin dastanı” baletindən ”Komdenin göz yaşları” musiqi nömrəsi İnarə Babayeva (vokal), beynəlxalq müsabiqələr laureatı Ülviyyə Kazımova (royal) və Əməkdar artist Aleksey Miltıx (violonçel) tərəfindən ifa olunub.



Bu barədə məlumat verən İnarə Babayeva bildirib ki, videoçarx xüsusilə sosial şəbəkələrdə geniş maraq doğurub. O qeyd edib ki, bu ideyanın müəllifi həmkarı Əməkdar artist Ramil Qasımovdur: “Əslində bizə layihəni təklif edəndə, təəccüblə qarşıladıq, çünki bu əsər həmişə instrumental səpkidə səslənir. Amma məşqlər zamanı gördük ki, həqiqətən, əsərə yeni bir həyat verilir. Mənimlə layihədə iştirak edən bütün dostlarıma təşəkkürümü bildirirəm”, – deyə İnarə Babayeva bildirib.

Qeyd edək ki, vokalçı Ramil Qasımov özü də görkəmli bəstəkarın doğum günü münasibətilə sözləri Səməd Vurğuna, musiqisi Arif Məlikova aid “Azərbaycan” mahnısına videoçarx hazırlayıb. R.Qasımov deyib: “İlk dəfə bu əsəri 2018-ci ildə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilən konsertdə ifa etmişəm. Bu, konsertdə iştirak edən Arif Məlikov üçün həm gözlənilməz, həm də sevincli olmuşdu. Çünki zamanında “Azərbaycan” mahnısının ilk ifaçısı Rəşid Behbudov olub. Mənə “kiçik dostum” deyə müraciət edərdi və sənətimə xüsusi diqqətlə yanaşardı. Onun doğum günündə əsərinə videoçarx hazırlamağı özümə borc bildim”.